*(Əvvəli ötən sayımızda)*

Ağacəfər Həsənli həyat kitabını, canlı insan aləmini görünən və görünməyən tərəfləri ilə kifayət qədər öyrənmiş və öyrəndikləri ilə silahlanmış mütəfəkkir şair kimi qanın konkret olaraq insan həyatındakı, insan orqanizmindəki rolunu bilməkdən başqa, qanın cəmiyyətin həyatına psixoloji təsirini, başqa sözlə, qanın fəlsəfi mahiyyətini yaxşı bilir. O, təbiət etibarilə təfəkkürü, düşüncələri öyrənən, tədqiq edən söz sahibidir. Görünür, elə bu səbəbdən qanın düşüncələrə təkanverici gücünü də araşdırmalı olub. Hər birimizə yaxşı məlumdur 20 Yanvarın qan gölməçələrinin qan donduran mənzərəsi.

Görünür, qan tökənlər bunun nə qədər sarsıdıcı olduğunu, qorxu sindiromu yaratdığını bununla da istəklərinə nail olacaqlarını düşündüklərindən məsələnin ikinci tərəfini unudurlar. Yəni həmişə qan onu görən insanı iflic edə bilmir. Bəli, əksinə, qan verənin qanı durulur. Sarsıntı öz yerini fəal düşüncəyə verir, qəzəb kükrəməyə başlayır. İnsan hissləri, duyğuları damarda cövlan edən qanın təsiri ilə durğunluqdan çıxır və kükrəmiş fantan kimi etiraz gücünə çevrilir.

Ağacəfər Həsənlinin düşüncəsində Nitsşedən gəlmə hökmün təsdiqi özünü qanın ruh kimi qavranılmasında tapır. İnsanın düşüncə baxımından fırtınası qanın şahə qalxmış at obrazı ilə birləşir: gözlənilməz olur ki, oxucunu heyrətləndirir, dinləyicinin təəccübünə səbəb olur.

Qanı ruh kimi qavrayan klassiklərin təlimini şair sözə gətirməklə onun həyati çalarlarını ideolizə edir. Demək, şairin düşünəsində qan təkcə ölüm deyil, bir körpənin anasının üzünə baxıb gülməsi, bir ananın oğul boyuna baxıb sevinməsi, bir atanın qələbə xəbərinə qürurlanmasıdır. Görün Ağacəfər Həsənli qanın diriliyini necə orijinal təqdim edir:

Torpağı sulasan, çiçək bitər,
torpağa qan töksən, insan...
Çünki qan - Ruhdu,
qan-sübhdü.
Gündüz ətə-qana dolur,
ot solur,
İnsan açılır.

Sulanmış torpaqdan bitən çiçəklə tökülən qandan düşüncəsi ilə göyərib bitmiş insan nə qədər bir-birinə bənzəyir. Çiçək safdır, zərifdir. T, təbiətin gözəlidir. Gözü sevindirən gözəllikdir. Qanından göyərib bitən insan yenidir, təzədir, günahsızdır. Sübhün özü kimi aydındır, dan üzü qədər cəlbedicidir. Çünki onun qanın içindən çıxmaqla addım atdığı yer ətə-qana dolmuş gündüzün işığında insana gəl-gəl deyir. Fəsillər dəyişəndə çöl-çəmən solsa da, yeni, günahsız həqiqətin içindən pərvəriş tapmış insan gül kimi açılmaqdadır.

Özgə vaxt konkret olaraq bir döyüş səhnəsi haqqında müəyyən mövzunu bitkin əhatə dairəsində düşüncəmizdən keçirib yaza bilərik. Ancaq şairin qanla

Tarixin dar küçəsində
hər şey əyri, dolaşıq.
Millətlərin halal qanı,
yad qanlarla bulaşıq.

Tarixin alt qatları-
Alp, Himalay ucalığı.
Zamanın üst qatları-
müdrikliyin qocalığı...

Hər doğulan uşaqla
körpə uşaqdır tarix.
Saxta tərif istəmir,
nurdur, işıqdır tarix.

Hövsələsi gendi, gen,
səbri, Zaman səbridir.
Tarix hər kəsin evi,
hər kəsin də qəbridir.

Bu əsər Ağacəfərin həyatı fəlsəfi dərkinin təsdiqidir. Onun filosof-şair kimi qəbul edilməsinin mübahisəsizliyinə sübutdur. Ağacəfər "Ruhun kölgəsi" adlandırdığı məzmunca "Qan" epopeyası adlandıracağımız bu əsəri ilə ədəbiyyatla, fəlsəfəni birləşdirməyin, qovuşdurmağın ən yaxşı nümunəsini yaradırdı.

* * *

A.Həsənlinin "Yağmur əlifbası" (şeirlər və poemalar) kitabı şairin XXI əsrə məktubu kimi də insanın təbiətlə, insanın bütövlükdə cəmiyyətlə münasibətlərinin ruhun, düşüncənin gözü ilə oxunan tərəflərinin mahiyyəti kimi xitabıdır. Kitab bir neçə bölmədən ibarətdir. "Atam haqqında doqquz hekayət" birinpağa nəsə yazır. Biz oxuya bilmirik - çiçək, güllər oxuyur, bülbüllər oxuyur". Demək, yağış öz əlifbasıyla çiçəklərin, güllərin, bir sözlə, təbiətin reseptini yazır. Və ilk həmin resepti oxuyan elə çiçəklərdi, güllərdi. Yağışın həblərini dərman kimi qəbul edən təbiətin gözəllik donunu dəyişməsidir. Gül açılacaq və bülbül oxuyacaq. Amma bu əlifbanı oxuya bilməyən də var. Məsələn, qar daşın üstündə nəsə yazır. Daş isə əlifdanı oxuya bilmədiyi üçün heç nə bitirə bilmir. Dolunun yağması ilə evlərin kirəmitləri cızılır. Demək, dolu həm də hədə göndərir. Və bütün bu anlamları şair əsər boyu yağmur əlifbasıyla oxuyub özünə tərcümə edir. Və sanki sevinir yağmur əlifbasını oxuya bildiyinə görə. Burada yağmur əlifbasını şair Allahın əlifbası kimi başa düşür. Zənnimcə, bu düşüncədə təbiətin Allahlıq gücü də ehtiva olunub.

Kitabda klassik fəlsəfi düşüncədən gələn mənaların obrazlaşdırılması baxımından "Su haqqında yarımhəqiqət və ya təbii harmoniya" bölməsində də şairin yüksək dərəcədə ümumiləşdirmələri ilə qarşılaşırıq. Suyun həyat obrazının poeziyada Ağacəfər Həsənli şərhini görmək çox maraqlıdır. Yaxud "Cəsurluğun simfoniyası"səri insan gücünün gözəgörünməz tərəflərinə işıq salmaq baxımından düşüncəmizi qanadlandırmağını adi, soyuq kəlmələrlə ifadə edə bilmərik. Azərbaycanın Milli Qəhrəmanı Çingiz Mustafayevin xatirəsinə həsr olunmuş

# Şair özünütəsdiqinin gücü vaxtin inkarı... düşüncənin meyarı...

Qan şaxə qalxar at kimi,
qan buğum-buğum buğlanar.
Qılınc oynatsan, tökülər,
saqqal tərpətsən bağlanar.

Buğum-buğum qalxan qanın mənbəyi doğranmış həqiqətdir. Qatillər qisas məqsədi ilə öldürdüklərinin canını almaqla kifayətlənmir. Onu parçalara, hissələrə ayırır, başını əzir, gözünü çıxarır... Bədən əzaları buğun-buğun doğranır. Qan buxarının yanan ocaqdan qalxab tüstü kimi buxarlanması onu görənlərin yaddaşına yazılır və Xocalı faciəsi yada düşür.

Mən inanıram ki, Ağacəfər Həsənli 20 Yanvarı, Xocalı faciəsini, Qarabağ dəhşətlərini görməsəydi, yaxud bu həyəcanları ruhən yaşamasaydı, qanın tablosunu bu dərəcədə sərtliyi ilə yarada bilməzdi. Qəzəb qılınca, gülləyə, topa, tüfəngə çevriləndə, nifrət, kin, mərmilər olanda, qan selə dönür. Ancaq bircə saqqal tərpətdməsi bəs edir ki, qan selinin mənbəyi kəsilsin. Nə qədər dəqiq və aydındır. Qarabağ müharibəsinin son günlərini xatırlayaq; Ali Baş Komandan nə qədər təkidlə can verən erməni yırtıcılığına müraciət elədi. Döyüşü dayandıra bilərəm, ancaq tabe olun, həqiqətə gəlin, işğal niyyətlərinizdən çəkinin. Hələ də bir zaman güvəndikləri güc mənbələrinə ümidlərini itirməmiş erməni faşistləri müqaviməti dayandırmaq istəmirdilər. Nəhayət, 8 noyabrda, Şuşanın işğaldan azad olunmasından sonra müqavimətin mənasız olduğunu görən "saqqal sahibləri öz saqqallarını tərpətməyə" məcbur oldular. Maraqlıdır ki, əsər xeyli əvvəl yazılıb. Amma həyat elementləri ilə əsərdəki təlqin həqiqətləri o qədər üst-üstə düşür ki, bunu ancaq şair öncəgörməsi hesab etmək olar.

Ağacəfərin timsalında öncəgörmə bir çox digər zümrələr kimi digər şairlərə də xas keyfiyyətdir. Şair həyatın axarını öz müşahidələri ilə ümumiləşdirərək dəqiq nəticəyə gəlir. Nəticə bəzən o qədər bağlı fəlsəfi düşüncələri fikir və xəyallarımızın sərhədlərini dağıdır, düşüncə axarı sürət götürür və söz yuyulmuş parlaqlığı ilə üzə çıxmış kristallar kimi görünür:

Qan - çiçəkdi,
qanın çiçək-çiçək
açdığını görmüsünüzmü?
Qanın acıq çıxdığını görmüsünüzmü?
Qanın su yerinə axdığını,
torpağa xına yaxdığını
və ya Qırmızı dənizdən qalxıb
göydən yağdığını görmüsünüzmü?
Qan-vaxtdı, qan bəxtdi.
Gah gülümsəyir üzünə,
gah da ki, qara gətirir.
Qanın qara vaxtında üzünü görmə,
bəxtin qara vaxtında
dərdin üzünü köçürmə,
çünki qara vaxtında
qan bar gətirmir.

Əgər belə demək mümkünsə, şair qanla bağlı düşüncələrini bu parçada ümumiləşdirib. Qanın vaxt kimi xarakterizə olunması vaxta verilən yeni çalardır. Eləcə də qanın özündə vaxtı görmək qana əbədiyyət məzmunu gətirməkdir. Əgər qanda vaxt hakimliyi, əbədiyyət məzmunu olmasaydı, onda qanla yazılmış tarixi həqiqətlər çoxdan yaddan çıxıb gedərdi. Beləliklə, şairin qanla bağlı düşüncələri fəlsəfi bir traktat kimi zaman-zaman oxunacaq və yaddan çıxmayacaq.

Şairin "Ruhun kölgəsi" adlandırdığı bu əsərdə qana önəm verdiyi kimi, qanın ruh kimi qavranılmasına da yol açır. Və şair özü deyir ki, mən insanı ruhun kölgəsi kimi görürəm. Görünür, şair ruhu qanı hərəkətə gətirən güc kimi görür və zənnimcə, düz görür. Şair bu əsərində qoyduğu problemləri cəmiyyət üçün açıqlayır. Ancaq əsərin sonluğunda zaman, dünya, tarix düşüncələrini yazır ki, bu da onun əsər boyu müəmmalar şəklində görünən suallara cavabı kimi başa düşülə bilər. Son parçalarda müəllif qanın yaratdığı tarixi xarakterizə edir.

ci bölmədir. Bu bölmədə şairin lirik şeirlərilə yanaşı, bir poeması da verilib - elə bölmənin adı ilə eynilik təşkil edən poeması. "Mənə ilişən küləklər", "Torpaq da süzgəcdən keçir", "Qorxu", "Nar ağacının yuxudan ayılması" və s. kimi hər bir şeirin içərisinə yığılmış enerji şairin həyata münasibətdə aydın düşüncələrinin əksi kimi görünür. Ata obrazını xarakterizə edən poemanı isə ayrıca mükəmməl tədqiqat mövzusuna çevirmək olar. Bu bölmədə şairin "Son" adlı bir şeiri var. Demək, baş qatdığımız yerlərin nəhayətsizliyi, can atdığımız göylərin sonsuzluğu şairi düşündürür. Və onun üçün bu düşüncələrin arasından bir həqiqət görünür: insan "Sona can ata-ata ömrünü sona çatdırır. Son yoxluqdumu, son bitmək, qurtarmaq ehtimalıdırmı... bu, sualları şair sanki cavablandırmır. Ancaq onun bir cavabı var ki, bu, əslində, həm də bəşərin istəyidir. Sona yetmək yox, sondan sonra ilkinliyə qayıtmaq istəyi.

Görəsən, şair sondan sonra özünü necə görür: "Çoxbilmiş, sehirbaz üzümdən taleyimi elə oxuyur - elə bil məni Allah xəlq eləməyib, o, yaradıb. Mən sonumu görürəm. Çünki sonum var, ardım var..." Həmişə deyirik; izin qalırsa, əməlindən nişan qalırsa ömrünün davamı var. Və şair də bu həqiqətdən kənara çıxmır, bunu təsdiq edir. Sən demə, sonunu görmək üçün heç bir sehirbaza gərək yoxmuş. Hər kəs özü də sağlığında, eygili vaxtında kifayət qədər özünü görmək imkanına malikdir. Şair insanların diqqətini məhz bu məqama yönəldir. Yəni, adi həqiqətə. Dünya adlı sehirbazın gözəgörünməz kələklərindən baş çıxartmağa yönəldir. Əslində, şairin bir missiyası da insanı dünyaya daha açıq gözlə baxmağa təhrik etməkdir. İnsan sonunu görəndə əməllərinin də hesabını çəkə bilir. Özünün mənəvi çəkisini dərk edir, kimliyini anlayır. Yaxud "Yağmur əlifbası" şeiri. İlk baxışdan adicə təbiət təsvirləridir: "Göy yağış əlifbasıyla torhəmin əsərdə gen yaddaşının mexanizmi açılır. Çingizxan nəhəngliyinin Çingiz Mustafayevdəki zərrəsi sözün gücü ilə canlanır, əsər boyu bu zərrənin necə əzəmət kəsb etməsini, necə güc kəsb etməsini qavraya bilirik.

Bu əsər kitabda "poema" qrifi ilə işarələnməsə də, əslində, mükəmməl poema örnəyidir. Düşüncələrlə, fəlsəfi ümumiləşdirmələrlə süslənmiş poema:

Çingizin kamerası əlindən düşmür,
indi də çəkir Şəhidlər Xiyabanını.
Tale tele-reportaj hazırlayır,
Axı əvvəl evin içi,
sonra çölü, - deyiblər.
Heç kəs hədəfdən yayınmır,
aşkar-gizlin nə varsa...
Ölümsüzlüyün şərqisini oxuya-oxuya
Car çəkir bütün dünyaya,
cəsurluğun fimfoniyasını.

Bütün sükut içində olan xiyabanın canlı mənzərəsini burada necə görməmək olar? Şairin dinlədiyi cəsurluq simfoniyası, əslində, Çingizin əbədiyyətə qovuşmuş ruhunun səsidir. Və heç də Çingizin obyektivindən həyatda nəsə yayınmır. Necə ki, bizim üçün görünməz olan əbədiyyət aləmində...

* * *

O, fəlsəfəni ədəbiyyata tərəf gətirmir. Poeziyanı ədəbi düşüncənin zirvəsinə qaldırır və həyatı fəlsəfi dərklə qovuşdura bilir.

Ağacəfər Həsənlinin əsərləri yüksək obrazlılıq nümunəsi kimi sözün ifadə imkanlarını sözün içində sıxılmış enerjini görmək istəyən və buna gücü çatan söz xiridarlarının həmişə diqqətində olacaq.

Və nəhayət, görünür, söz, həm də qandır... Və görünür, söz həqiqətdir, söz cəsurluğun simfoniyasıdır, söz yağmur əlifbasıdır.

...Və söz şairin özüdür.

***Əli Rza XƏLƏFLİ***
***10.12.2020***